
100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 23 (24.509)
20 iyun 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycanın inkişaf modeli:




## İslam dünyasının yeni əməkdaşlıq gündəliyi

Bakı növbəti dəfə İslam dünyasının iqtisadi əməkdaşlıq mərkəzinə çevrildi. İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun, etibarlı tərəfdaş statusunun və qlobal iqtisadi proseslərdə artan rolunun növbəti təsdiqi oldu. Azərbaycan artıq ikinci dəfədir ki, İllik Toplantıya ev sahibliyi edir. Bu fakt Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə formalaşdırdığı möhkəm tərəfdaşlığın, yüksək əməkdaşlıq səviyyəsinin və qarşılıqlı etimadın göstəricisidir. Bu, milli maraqlara əsaslanan, qlobal səhnədə bütün iştirakçılarla yaxşı münasibətlərin qurulmasına, uğurlu inkişafa söykənən siyasətin təzahürüdür. Bu gün Azərbaycanın reallığını təşkil edən siyasət, iqtisadi və sosial sabitlik, nəinki inkişafın əsas meyarıdır, o cümlədən regional inkişafın göstəricisidir. Çünki Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektlərdə artıq mühüm iştirakçıya çevrilib. Müstəqil xarici siyasət Azərbaycana beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazandırıb. Dünyanın mütləq əksəriyyətinin dəstəyini qazanmaq, yalnız bəyanatlar əsasında deyil, praktiki addımlara əsaslanan hörməti göstərir. Səhifə ➡ 2

# Şuşa konfransı:

## Cənubi Qafqazda sülh və əməkdaşlığın yeni diplomatik platforması


Səhifə ➡ 3

### Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” III konqres-festival keçirilib



Səhifə ➡ 4

### Uzunmüddətli dövlət dəstəyi region üçün davamlı inkişaf perspektivi deməkdir


Səhifə ➡ 7

### Aqrar sektorun inkişafında yeni strateji hədəflər və yol xəritəsi


Səhifə ➡ 8

### Gələcəyin peşəkarları burada yetişir: Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi


Səhifə ➡ 11

### Naxçıvan gimnastları beynəlxalq festivalda uğurla çıxış ediblər


Səhifə ➡ 12

# Azərbaycanın inkişaf modeli:




## İslam dünyasının yeni əməkdaşlıq gündəliyi

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan bu gün Avrasiya ölkələrini birləşdirən, təchizat zəncirlərinin etibarlılığı və enerji təhlükəsizliyinin milli təhlükəsizliyin əsas sütununa çevrildiyi şəraitdə, irimiqyaslı infrastruktur layihələrini irəli sürən, maliyyələşdirən və həyata keçirən mühüm qlobal aktordur.

Prezident İlham Əliyevin toplantının açılış mərasimində səsləndirdiyi fikirlər təkcə Azərbaycanın inkişaf yolu haqqında məlumat xarakteri daşımır. Bu çıxış həm də müasir dövrdə İslam dünyasının qarşısında duran vəzifələrə, iqtisadi əməkdaşlığın perspektivlərinə və yeni çağırışlara verilən siyasi baxışın ifadəsidir. Azərbaycanın müstəqillik tarixinin son dövrləri göstərir ki, davamlı inkişaf üçün, ilk növbədə, siyasi sabitlik, düzgün strateji kurs və milli maraqlara əsaslanan idarəçilik modeli tələb olunur. Dövlət başçısının çıxışında vurğuladığı kimi, Azərbaycan bütün çətinliklərə baxmayaraq, iqtisadi müstəqilliyini təmin etməyə, sosial rifahı yüksəltməyə və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməyə nail olub. Bu gün ölkəmiz yalnız öz inkişafını təmin edən dövlət deyil, eyni zamanda regional və qlobal layihələrin həyata keçirilməsində mühüm rol oynayan etibarlı tərəfdaş kimi tanınır.

Azərbaycan infrastruktura yatırdığı sərmayələri yalnız daxili ehtiyacların ödənilməsinə deyil, beynəlxalq əhəmiyyət daşıyan kommunikasiya və nəqliyyat layihələrinin inkişafına yönəldib. Bu yanaşma Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirib, ölkənin əlverişli coğrafi mövqeyini mühüm logistika üstünlüyünə transformasiya edib. Ona görə də bu gün Azərbaycandan keçən Şərq-Qərb və Şimal-Cənub dəhlizləri sayı artmaqda olan ölkələr üçün çox önəmli təchizat marşrutlarını təmin edir. Bu siyasət ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirib, onu müxtəlif sivilizasiyalar, iqtisadi məkanlar və nəqliyyat marşrutları arasında körpüyə çevirib. Bakı artıq təkcə Azərbaycanın paytaxtı deyil, həm də beynəlxalq dialoq və əməkdaşlıq platforması kimi qəbul edilir.

Prezident İlham Əliyevin çıxışında diqqətçəkən məqamlardan biri Azərbaycanın enerji təhlükəsizliyi sahəsində oynadığı rol ilə bağlıdır. Artıq Azərbaycan 16 ölkəyə təbii qaz ixrac edir. Bu gün Azərbaycan təbii qazını Avropadan Balkanlara, Qafqazdan Aralıq dənizi hövzəsinə qədər uzanan geniş bir coğrafiyaya nəql edir. Xüsusilə son illərdə Avropada enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması fonunda ölkəmizin rolu daha da artıb. Azərbaycan qazı bir çox dövlətlər üçün enerji mənbələrinin şaxələndirilməsində mühüm amilə çevrilib. Bu isə ölkəmizə olan etimadın və inamın göstəricisidir. Bu göstərici ölkəmizin Avrasiyanın enerji xəritəsində tutduğu mühüm mövqeyin ifadəsidir. Bir neçə il əvvəl enerji təchizatı baxımından alternativlərin məhdud olduğu bir şəraitdə Azərbaycanın həyata keçirdiyi strateji layihələr bu gün bir çox dövlətlərin enerji təhlükəsizliyinin təmin edilməsində vacib amilə çevrilib.

Əslində, Azərbaycanın enerji siyasəti təkcə iqtisadi gəlir əldə etmək məqsədi daşımır. Bu siyasət həm də qarşılıqlı etimada və uzunmüddətli tərəfdaşlığa əsaslanan əməkdaşlıq modelidir. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji layihələri regionda sabitliyin və iqtisadi inteqrasiyanın möhkəmlənməsinə xidmət edir. Məhz buna görə də Azərbaycan etibarlı tərəfdaş kimi beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Açılış mərasimində Prezident İlham Əliyevin diqqət çəkdiyi əsas məsələlərdən biri də nəqliyyat və logistika imkanlarının genişləndirilməsi ilə bağlı idi. Son illərdə ölkəmizdə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm tranzit mərkəzinə çevrilməsini təmin edib. Orta Dəhlizin əhəmiyyətinin artdığı bir vaxtda Azərbaycanın bu marşrut üzərindəki strateji mövqeyi daha da güclənir. Cənab Prezidentin dediyi kimi: ***"Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici, təxminən, 14-15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun haması yalnız bizdən asılı deyil. Bu həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır".***

Bu gün dünyada iqtisadi inteqrasiyanın əsas şərtlərindən biri etibarlı nəqliyyat əlaqələrinin mövcudluğudur. Azərbaycan isə öz coğrafi üstünlüklərini müasir infrastrukturla birləşdirərək yeni əməkdaşlıq imkanları yaradır. Bu baxımdan, İslam İnkişaf Bankı Qrupunun toplantısında regional inteqrasiya məsələlərinin ön plana çıxarılması təsadüfi deyil.

Müasir dövrdə İslam ölkələrinin qarşısında duran əsas vəzifələrdən biri iqtisadi potensialın birgə səylərlə daha səmərəli istifadəsidir. İslam İnkişaf Bankı Qrupu da məhz bu məqsədə xidmət edən mühüm beynəlxalq maliyyə institutlarından biridir. Azərbaycanın bu qurumla uzun illər ərzində formalaşdırdığı əməkdaşlıq münasibətləri ölkəmizin inkişafına əhəmiyyətli töhfələr verib. Bu gün isə yeni dövrün reallıqları daha geniş əməkdaşlıq imkanları yaradır.

Azərbaycanın iqtisadi gücü və beynəlxalq tərəfdaşlıq imkanları təkcə mövcud layihələrin genişlənməsinə deyil, həm də postmünaqişə dövrünün quruculuq proseslərinə xidmət edir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələri yeni investisiya istiqamətləri formalaşdırır. Qarabağ və Şərqi Zəngəzurda qurulan müasir infrastruktur, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, "yaşıl enerji" konsepsiyası Azərbaycanın gələcəyə hesablanmış inkişaf modelinin tərkib hissəsidir. Bu layihələr həm də beynəlxalq maliyyə institutları üçün yeni əməkdaşlıq imkanları açır.

Prezident İlham Əliyevin Cənubi Qafqazda yaratdığı sülh və əməkdaşlıq mühiti keçirilən tədbirin əsas mövzularından birinə çevrildi. Bununla belə tarixi yaddaş daim yaşayacaq. Cənab Prezidentin sözləri ilə desək: ***"Artıq, təxminən, bir ilə yaxındır ki, biz sülh şəraitində yaşayırıq və bunun müsbət nəticələrini görürük. Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdikləri heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır".***

İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında Bakıdan verilən mesaj aydındır: qarşılıqlı etimad, ortaq maraqlar və dayanıqlı inkişaf üzərində qurulan əməkdaşlıq gələcəyin ən etibarlı yoludur. Azərbaycan isə bu yolun təşəbbüskarlarından biri kimi həm İslam dünyasının, həm də daha geniş coğrafiyanın inkişaf gündəliyinə töhfə verməyə davam edir.

**Məmməd BABAYEV**



# Şuşa konfransı:

## Cənubi Qafqazda sülh və əməkdaşlığın yeni diplomatik platforması



## Prezident İlham ƏLİYEV:

***"Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə, Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir."***

Müasir beynəlxalq münasibətlər sistemi qlobal və regional təhlükəsizlik çağırışlarının artdığı, geosiyasi rəqabətin yeni mərhələyə qədəm qoyduğu mürəkkəb bir dövrü yaşayır. Dövlətlər arasında mövcud münaqişələrin dərinləşməsi, enerji və nəqliyyat dəhlizləri uğrunda rəqabətin güclənməsi, transmilli təhdidlərin genişlənməsi, eləcə də sürətlə dəyişən siyasi reallıqlar regional əməkdaşlıq mexanizmlərinin əhəmiyyətini daha da artırır. Belə bir şəraitdə davamlı sülhün təmin olunması, qarşılıqlı etimadın möhkəmləndirilməsi və çoxtərəfli əməkdaşlığın inkişafı beynəlxalq siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Cənubi Qafqaz da bu qlobal proseslərin mühüm tərkib hissəsidir. Tarixboyu müxtəlif geosiyasi maraqların kəsişdiyi bu region uzun illər münaqişələr və qarşıdurmalarla üzləşsə də, 2020-ci ildə Azərbaycanın tarixi zəfərindən sonra yaranmış yeni reallıqlar sayəsində burada sülh, əməkdaşlıq və iqtisadi inteqrasiya üçün geniş imkanlar açılıb. Xüsusilə Azərbaycanın irəli sürdüyü mühüm təşəbbüslər regionun sabitlik və inkişaf məkanına çevrilməsi istiqamətində yeni perspektivlər formalaşdırır. Bu baxımdan, iyunun 15-də Şuşada işə başlayan "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans regionun gələcəyinə dair baxışların, təhlükəsizlik strategiyalarının və əməkdaşlıq perspektivlərinin müzakirə edildiyi mühüm beynəlxalq platforma rolunu oynayır.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın belə bir mötəbər tədbirə ev sahibliyi etməsi şəhərin təkcə tarixi və mədəni deyil, həm də siyasi-diplomatik əhəmiyyətinin artdığını nümayiş etdirir. Prezident İlham Əliyev konfrans iştirakçılarına müraciətində Azərbaycanın ədalətli dünya nizamının formalaşmasına və Avrasiya məkanında etibarlı əməkdaşlıq mühitinin yaradılmasına töhfə vermək əzmində olduğunu vurğuladı. Sitat: ***"Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə, Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir. Bu önəmli beynəlxalq konfrans nümunəsində ölkələr arasında, həmçinin cəmiyyətdə sağlam əməkdaşlıq və həmrəylik mühitinin qorunması üçün fərqli siyasi maraqları ifadə edən partiyaların konstruktiv dialoqa, məsuliyyətli davranışa və milli maraqlar əsasında birgə fəaliyyətə üstünlük verməsi qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir".***

2022-ci ildən etibarən təşkil olunan bu beynəlxalq konfrans Azərbaycanın regional sülh təşəbbüslərinin və çoxtərəfli əməkdaşlıq siyasətinin mühüm platformalarından birinə çevrilib. Tədbirin iştirakçı coğrafiyasının ildən-ilə genişlənməsi onun beynəlxalq nüfuzunun artdığını, eyni zamanda Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və əməkdaşlıq məsələlərinin qlobal gündəmdə getdikcə daha mühüm yer tutduğunu nümayiş etdirir.

Bildiyimiz kimi, Azərbaycanın müstəqillik dövründə qarşılaşdığı əsas problemlərdən biri ərazi bütövlüyünün pozulması və uzunmüddətli işğal faktı olub. Təxminən, otuz il davam edən bu vəziyyət təkcə regional təhlükəsizliyi deyil, beynəlxalq hüququn tətbiqi məsələlərini də gündəmdə saxlayıb. 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunması Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşdırıb və sülh quruculuğu prosesinə yeni impuls verib. Bu yeni mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərbi qələbəni siyasi dialoq, iqtisadi inteqrasiya və regional əməkdaşlıq imkanlarına çevirmək siyasəti yürüdür. Respublikamızın irəli sürdüyü sülh təşəbbüsləri və Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar Cənubi Qafqazın gələcək inkişafında mühüm amillərdən biri hesab olunur. Bu kontekstdə reallaşmaq mərhələsində olan Zəngəzur dəhlizi layihəsi yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpası kimi deyil, həm də Şərq-Qərb nəqliyyat marşrutunun və Orta Dəhlizin mühüm tərkib hissəsi olaraq qiymətləndirilir. Bu fakt bir daha göstərir ki, Azərbaycanın irəli sürdüyü təşəbbüslər təkcə milli maraqlara xidmət etmir, həm də regionda uzunmüddətli sülhün, sabitliyin və davamlı inkişafın təmin edilməsinə yönəlmiş strateji yanaşmanın tərkib hissəsidir.




Postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri Azərbaycanın milli təhlükəsizlik və dayanıqlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Müasir şəhərsalma prinsiplərinə əsaslanan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, müasir sosial, iqtisadi və nəqliyyat infrastrukturunun yaradılması həmin ərazilərin innovativ və dayanıqlı inkişaf modelinə çevrilməsini hədəfləyir. 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi, eləcə də BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının Bakıda keçirilməsi ölkəmizin müasir şəhərsalma, dayanıqlı inkişaf və beynəlxalq əməkdaşlıq sahələrində artan nüfuzunu əks etdirir.

Ümumilikdə, qeyd etmək olar ki, Şuşada keçirilən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans Azərbaycanın regional və qlobal təhlükəsizlik gündəliyində artan rolunun, eləcə də sülh və əməkdaşlıq təşəbbüslərinə sadiqliyinin növbəti ifadəsidir.

Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin ildönümündə fəaliyyətə başlayan bu tədbir həm tarixi-siyasi rəmzi məna daşıyır, həm də gələcəyə yönəlmiş əməkdaşlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Şuşanın mühüm beynəlxalq siyasi dialoq mərkəzinə çevrilməsi Azərbaycanın sülh gündəliyinin təşviqində, regional təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və müxtəlif ölkələr arasında konstruktiv əməkdaşlığın inkişafında oynadığı fəal rolun aydın göstəricisidir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Əminəm ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanı xilas etməsi ilə əlamətdar olan Milli Qurtuluş Günü və tarixi Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi bu konfrans çevik mexanizm funksiyasını yerinə yetirərək iştirakçı ölkələr arasında davamlı əməkdaşlığın qorunmasına vacib töhfələr verəcəkdir".***

**Nail ƏSGƏROV**

## Naxçıvanda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təşkil edilib






İyunun 12-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş simfonik konsert proqramı təşkil olunub. Konsert Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin təqdimatında baş tutub.

Tədbiri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət rəsmiləri, deputatlar, universitetin professor-müəllim heyəti, tələbələr və ictimaiyyət nümayəndələri izləyiblər.

Konsertdən əvvəl 15 İyun – Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini əks etdirən videoçarx nümayiş olunub. Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev çıxış edərək Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə baş verən ictimai-siyasi proseslərə, həmin dövrün dövlətçilik baxımından xarakterik xüsusiyyətlərinə və 15 iyun hadisələrinin tarixi kontekstinə nəzər salıb. Çıxışda 1990-cı illərin əvvəllərində mövcud olan siyasi və ictimai şərait, dövlət institutlarının formalaşması prosesi, habelə ölkənin sonrakı inkişaf mərhələlərinə təsir göstərən əsas amillər barədə tarixi-maarifləndirici məlumat verilib. Milli Qurtuluş Gününün Azərbaycan dövlətçilik tarixindəki yeri və bu tarixlə bağlı formalaşmış elmi-tarixi yanaşmalar diqqətə çatdırılıb.



Konsert proqramında tanınmış bəstəkarlar Cahangir Cahangirov, Ramiz Mirişli, Polad Bülbüloğlu və Riçard Ştrausun əsərləri və orkestrin repertuarında yer alan bir sıra sevilən musiqilər səsləndirilib. Proqram çərçivəsində solistlər, Əməkdar artistlər və Prezident mükafatçıları çıxış edərək tamaşaçılara zəngin musiqi axşamı bəxş ediblər.

Konsertin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərov, dirijorları isə Naxçıvan Dövlət Universitetinin müəllimi, Xalq artisti, professor Çingiz Axundov və Naxçıvan Dövlət Universitetinin müəllimi, Əməkdar artist Səməd Əsgərov olub.

## Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib




İyunun 16-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Baş prokuror Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasının prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.



## Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” III konqres-festival keçirilib






İyunun 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycana qayıdış” III konqres-festivalı öz işinə başlayıb.







Konqres-festivalın iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.

Ordubad şəhərində “Qərbi Azərbaycana qayıdış” konqres-festivalının rəsmi açılış mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin təqdimatında Qərbi Azərbaycanın tarixi və mədəni irsinə həsr olunmuş bədii kompozisiya və I və II “Qərbi Azərbaycana qayıdış” konqres-festivallarını əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək Qərbi Azərbaycan mövzusunun Azərbaycan xalqının tarixi yaddaşı, milli kimliyi və mənəvi irsi ilə ayrılmaz şəkildə bağlı olduğunu bildirib.

Vurğulayıb ki, bu məsələyə dövlət səviyyəsində daim böyük diqqət göstərən Ümummilli Liderimiz Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın taleyini hər zaman diqqətdə saxlayıb, onların hüquqlarının müdafiəsini mühüm vəzifələrdən biri kimi müəyyən edib. Bu gün həmin siyasi kurs uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandanımızın müdrik siyasəti və rəhbərliyi, Azərbaycan xalqının birliyi və qəhrəman oğullarımızın şücaəti ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin tam suverenliyinin təmin edilməsi xalqımızın tarixində yeni bir mərhələ açıb. Bu şanlı qələbələr Azərbaycan dövlətinin gücünü, xalqımızın iradəsini və milli birliyini bütün dünyaya nümayiş etdirib.






Məhz yeni reallıqlar şəraitində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Qərbi Azərbaycan məsələsini milli gündəliyin mühüm istiqamətlərindən biri kimi müəyyən edib. Bu istiqamətdə aparılan tədqiqatlar, nəşr olunan elmi əsərlər, toplanan arxiv materialları, folklor nümunələri və etnoqrafik irs nümunələri təkcə keçmişimizin öyrənilməsinə deyil, həm də gələcək nəsillərin milli yaddaşının möhkəmləndirilməsinə xidmət edir. Səlahiyyətli nümayəndə “Qərbi Azərbaycana qayıdış” III konqres-festivalının tariximizin öyrənilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, elmi əməkdaşlığın genişləndirilməsi və gənc nəslin tarixi yaddaşının gücləndirilməsi baxımından uğurlu nəticələrlə yadda qalacağına əminliyini bildirib, tədbirin bütün iştirakçılarına uğurlar arzulayıb, konqres-festivalın işinə müvəffəqiyyətlər diləyib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxışında Qərbi Azərbaycan mövzusunun ölkəmizin təhsil və elmi sahələrdə əsas mövzulardan birinə çevrildiyini diqqətə çatdıraraq bu istiqamətdə Qərbi Azərbaycan İcması, eləcə də elm müəssisələrinin, xüsusilə Naxçıvan Dövlət Universitetinin rolunu xüsusi qeyd edib. Nazir vurğulayıb ki, Qərbi Azərbaycan mövzusu ideyadan strateji fəaliyyət mərhələsinə keçib.

ardı 5-ci səhifədə





Ölkə başçısının məqsədyönlü siyasəti nəticəsində Qərbi Azərbaycana qayıdışla bağlı sistemli təşkilatlanma, maarifləndirmə və araşdırma tədbirləri həyata keçirilir. Emin Əmrullayev Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanan resurslar və tədris vəsaitlərinin ictimai müzakirəyə açıq olduğunu vurğulayıb, elmi ictimaiyyəti, ali təhsil müəssisələri və alimləri bu prosesdə daha fəal iştiraka və öz töhfələrini verməyə çağırıb.





Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov konqres-festivalın təşkil olunmasında əməyi keçən bütün təşkilatlara minnətdarlıq edərək bildirib ki, qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ölkəmizin xarici siyasət konsepsiyasının mühüm prioritet istiqamətlərindən biridir. Ölkəmiz sülh gündəliyinə sadiqdir və bu istiqamətdə üzərinə düşən öhdəlikləri yerinə yetirir. Bu prosesin əsas hədəflərindən biri də Qərbi Azərbaycandan olan soydaşlarımızın doğma torpaqlarına qovuşmasıdır. Bu baxımdan, Qərbi Azərbaycana qayıdış konsepsiyası öz yurdlarından qovulmuş yüz minlərlə azərbaycanlının ləyaqətli, təhlükəsiz və hüquqi əsaslarla geri qayıtmasını özündə əks etdirən prioritet məsələdir. Bu mənada, Azərbaycanın ortaya qoyduğu yanaşma siyasi məqsədlərdən daha çox humanitar mahiyyət daşıyır.



Ziyafət Əsgərov vurğulayıb ki, bu gün Azərbaycan və Ermənistan arasında faktiki olaraq yeni münasibətlər mərhələsinin formalaşması üçün imkanlar yaranıb. Hüquqi baxımdan həllini gözləyən məsələlər mövcuddur. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması vacib şərt olaraq qalır. Ermənistan rəhbərliyi bu istiqamətdə referendum keçiriləcəyini bəyan edib. Belə olduğu təqdirdə, Azərbaycan və Ermənistan arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafı üçün yeni imkanlar yaranacaq. Əsas məqsəd Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin təmin olunması, onilliklər boyu davam edən qarşıdurmalara son qoyulmasıdır. Azərbaycan milli maraqlarını rəhbər tutaraq baş verən proseslərə uyğun şəkildə siyasətini davam etdirəcək.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında qeyd edib ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı zəfər milli özünüdərkimizin, tarixi ədalətə inamımızın və dövlətçilik iradəmizin təntənəsi oldu. Bu zəfər yalnız işğal altında olan torpaqlarımızın azad edilməsini təmin etmədi, eyni zamanda xalqımızın tarixi yaddaşında yaşayan bir çox məsələlərin daha geniş müstəvidə həllində yeni imkanlar yaratdı. Məhz zəfərdən sonra "Qərbi Azərbaycana qayıdış" ideyası da Azərbaycan cəmiyyətinin əsas milli ideyalarından birinə çevrildi. Buna görə də bu gün burada, sadəcə, bir tədbirin iştirakçısı kimi deyil, tarixi yaddaşımızı yaşadan, milli kimliyimizi qoruyan və gələcək nəsillərə ötürən böyük bir ideyanın daşıyıcıları kimi toplaşmışıq. Gənclərin bu prosesdə fəal iştirakı böyük əhəmiyyət daşıyır. Çünki tarixi yaşadan, yaddaşı yaşadan və onu gələcəyə daşıyan məhz gənc nəsillərdir. Onların milli-mənəvi dəyərlərə bağlı, tarixini dərindən bilən və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi yetişməsi hər birimizin ortaq məqsədidir.



Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli konfransın işinə uğurlar arzulayaraq Qərbi Azərbaycan mövzusuna həsr olunmuş tədbirin məhz XX əsrin əvvəllərində qanlı hadisələrdən ən çox təsirlənmiş bölgələrdən biri olan Naxçıvanda və Ordubadda keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Vurğulayıb ki, bu, bir tərəfdən tarixi hadisələrin obyektiv şəkildə dəyərləndirilməsi və gələcək nəsillərə çatdırılması, digər tərəfdən isə gənclərin müstəqil dövlətçilik, Azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından mühüm rol oynayır. İsa Həbibbəyli qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər regionda yeni siyasi reallıqlar yaradıb, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində yeni mərhələnin əsasını qoyub. "Qərbi Azərbaycana qayıdış" ideyası əsasında müəyyənləşdirilən konsepsiyanın irəli sürülməsi də Azərbaycanın bir daha sülh və insanların ləyaqətli həyat şəraitində yaşamasının tərəfdarı olmasını təsdiq edir.





Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli çıxış edərək vurğulayıb ki, bölgədə sülh şəraitində həyatı davam etdirməyin yeganə yolu burada Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşmaqdır. Bu reallıqlardan biri də ilkin mərhələdə Qarabağ münaqişəsinin ilk mərhələsində və bu münaqişənin tərkib hissəsi kimi öz doğma ocaqlarından qovulmuş 300 min azərbaycanlı qaçqının və onların övladlarının geriyə qayıdış hüququnun tanınması və təmin edilməsidir. Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh sazişinin paraflanması, Birgə Bəyannamənin imzalanması, nəhayət, bölgəyə sülhün gəlməsinə inamı artırıb. Birgə yaşayışın yeganə yolu isə hər bir insanın doğulub boya-başa çatdığı ərazilərə qayıdış hüququnun tanınmasından və təmin edilməsindən keçir. Bu baxımdan, bu cür tədbirlərin məhz burada keçirilməsi həm də qarşı tərəfə ünvanlanan mühüm bir mesajdır.



Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Hüseynova konqres-festivalın maarifləndirmə və yaddaşı təzələmək baxımından önəminə toxunaraq bildirib ki, Qərbi Azərbaycana qayıdış konsepsiyası çərçivəsində həyata keçirilən bu mötəbər tədbir öz mahiyyəti və verəcəyi mesajlarla xüsusi əhəmiyyət daşıyır. Tədbirin keçirildiyi məkan da rəmzi məna daşıyır. Qədim Ordubad Zəngəzur dəhlizi üzərində yerləşən, strateji əhəmiyyətə malik bölgədir.

Bu ərazi həm Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək nəqliyyat xəttinin, həm də regionun inkişaf perspektivlərinin mühüm tərkib hissəsidir. Mahirə Hüseynova əminliklə ifadə edib ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə bu bölgə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Ədalətin bərpası və "Qərbi Azərbaycana qayıdış" ideyası öz real nəticələrini verəcək, xalqımız öz tarixi yurdlarına qovuşacaq.



Türkiyənin İğdır Universitetinin rektoru Ekrem Gürel qeyd edib ki, Qərbi Azərbaycana qayıdış missiyası yalnız coğrafi bir həsrətin və ya keçmişə dönüş istəyinin ifadəsi deyil, ədalətin, tarixi həqiqətlərin və nəsillər boyu yaşadılmış mədəni irsin öz haqqına qovuşdurulması mübarizəsidir. Qarabağda əldə olunan zəfərdən sonra doğma yurdlarına həsrət qalan soydaşlarımızın sülh yolu ilə və hüquqi əsaslarla geri dönüş mübarizəsi bütün Türk dünyasının ortaq və haqlı mübarizəsidir. Konqres-festivalın sosiologiyadan tarixə, hüquqdan beynəlxalq münasibətlərə qədər geniş bir sahədə qayıdış ideyasının akademik əsaslarını formalaşdırdığını qeyd edən rektor İğdır Universiteti olaraq Qərbi Azərbaycan mədəniyyətinin, folklorunun və tarixi həqiqətlərinin dünyaya çatdırılması istiqamətində hər cür akademik əməkdaşlığa və ortaq fəaliyyətə hazır olduğunu vurğulayıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Qərbi Azərbaycan" layihəsinin təqdimatı izlənilib.

Bədii hissə ilə davam edən tədbirdə Qərbi Azərbaycanın zəngin folklorunu, musiqi ənənələrini və milli-mənəvi dəyərlərini özündə əks etdirən konsert proqramı təşkil edilib.

Bədii hissənin ardınca Qərbi Azərbaycana həsr olunmuş sərgilərə baxış olub. Ordubadın qədim məhəllələri boyunca qurulan pavilyon və stendlərdə əslən Qərbi Azərbaycandan olan və muxtar respublikada yaşayan soydaşlarımız öz doğma yurd yerlərinin adət-ənənələri, mədəniyyəti, folklor nümunələri və kulinariyasını nümayiş etdiriblər.

Müasir texnologiyalarla ənənəvi sənət nümunələrini bir araya gətirən ekspozisiyalar iştirakçılara Qərbi Azərbaycanın keçmişini, mədəniyyətini və həyat tərzini yaxından tanımaq imkanı yaradıb.

ardı 6-cı səhifədə





Azərbaycan aşıq sənətinin qədim ənənələrini yaşadan ustad aşıqların ifasında dastanlar və xalq musiqisi nümunələri təqdim olunub. Həmçinin görkəmli rəssam Mirzə Qədim İrəvaninin yaradıcılığını əks etdirən sənət nümunələri nümayiş olunub, onun Azərbaycan təsviri sənətinə verdiyi töhfələr təqdim edilib. Xalça sərgisində isə Qərbi Azərbaycan xalçaçılıq məktəbinin ənənələri, qədim ornamentləri və əl işləri sərgilənib.

Qərbi Azərbaycanın tarixi, təbiəti, milli-mədəni dəyərləri, eləcə də bölgənin tarixi abidələrini və maddi-mədəni irsini əks etdirən rəsm sərgiləri də maraqla qarşılanıb.

Festival iştirakçıları Qərbi Azərbaycan florası, kulinariyası, qədim yurd yerlərimizin tarixi, mədəniyyəti və ictimai həyatı ilə bağlı kitab, jurnal, qəzet sərgilərinə də baxıblar.

Konqres-festival Qərbi Azərbaycanın tarixi, mədəni irsi və milli-mənəvi dəyərlərinə həsr olunmuş 8 istiqamət üzrə plenar iclas və panel müzakirələrlə öz işini davam etdirib.





## Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib





İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq 2026-cı il 12 may tarixində Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrasına dair illik hesabat və “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub. Qanun layihəsi Ali Məclisin İqtisadi siyasət komitəsinin iclasında müzakirə edilib.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramov qanun layihəsi haqqında məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

“Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi ilə əlaqədar maliyyə naziri Həsən İsmayılov çıxış edib.

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli Azərbaycan Respublikası Hesablama Palatasının “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrasının təhlilinin nəticələri haqqında auditor hesabatı”nı diqqətə çatdırıb.





Deputatlardan Ramil Nəbiyev, Vüsal Məmmədzadə və Mahir İsmayılov gündəlikdə duran məsələ ilə bağlı çıxış etdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəlikdə duran ikinci məsələ – “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə bağlı Ali Məclis sədrinin birinci müavini bildirib ki, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli Konstitusiya Qanunu ilə əlaqədar olaraq “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsinə zərurət yaranıb, bununla bağlı qanun layihəsi hazırlanıb və deputatlara təqdim olunub. Qanun layihəsi Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilib.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi haqqında məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. Ardınca qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəlikdə duran sonuncu məsələ – “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə bağlı Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar siyahısına Naxçıvan Muxtar Respublikasının fəxri adlarının da daxil edilməsi ilə “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” yeni qanunun qəbul edilməsinə zərurət yaranıb, bununla bağlı qanun layihəsi hazırlanıb və deputatlara təqdim olunub. Qanun layihəsi Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilib.

Hüquq siyasəti komitəsinin sədri tərəfindən qanun layihəsi haqqında məlumat verilib, komitənin rəyi diqqətə çatdırılıb.

Qanun layihəsi ilə bağlı deputat Mövlan Məmmədov çıxış edib. Ardınca qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası başa çatıb.

## Ali Məclis sədrinin birinci müavini Avropa Şurası Konqresinin İdarəçilik, Vətəndaşlarla İş və Ətraf Mühit Komitəsinin iclasında iştirak edib




İyunun 11-də Fransanın Paris şəhərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin İdarəçilik, Vətəndaşlarla İş və Ətraf Mühit Komitəsinin iclası keçirilib. İclasda Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov da iştirak edib.

İclasın gündəliyində duran ilkin məsələlər “Yerli və regional səviyyələrdə korrupsiyanın qarşısının alınması və dürüstlüyün təşviqi üzrə addımlar” və “Təhsildən geri qalmaq: Avropa icmalarında məktəbə davamiyyətsizliklə mübarizə” mövzularında hesabatların dinlənilməsi olub. Məruzəçilər tərəfindən təqdim olunan hər iki hesabatın tövsiyə və qətnamə layihələri səsə qoyularaq qəbul edilib. Hesabatlar zamanı həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) qonaq olan müvafiq ekspertləri tərəfindən prezentasiyalar təqdim olunub.

İclasda komitənin davam etməkdə olan hesabatları üzrə komitə üzvləri arasında fikir mübadiləsi aparılıb, daha sonra “Yerli və regional səviyyələrdə insan hüquqları” mövzusunda debat baş tutub.

Sonda Komitənin 2026-2027-ci illər üzrə iş planı müzakirə edilərək qəbul edilib.



## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



İyunun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin birinci oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda gündəlikdə duran məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov məlumat verdikdən sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Uzunmüddətli dövlət dəstəyi region üçün davamlı inkişaf perspektivi deməkdir

Müasir dünyada iqtisadi güc anlayışı əvvəlki dövrlərlə müqayisədə xeyli dəyişib. Əgər bir zamanlar ölkələrin iqtisadi imkanları, əsasən, malik olduqları təbii resurslarla ölçülürdüsə, bu gün əsas üstünlük həmin resurslardan asılılığı azaltmaq, istehsalı şaxələndirmək, ixrac coğrafiyasını genişləndirmək və qlobal bazarlarda dayanıqlı mövqe qazanmaq bacarığı ilə müəyyən olunur. Son illərdə geosiyasi gərginliklər, tədarük zəncirlərində yaranan qırılmalar, nəqliyyat-logistika marşrutlarının dəyişməsi və xarici bazarlardakı qeyri-sabitlik göstərdi ki, iqtisadi təhlükəsizlik yalnız daxildə məhsul istehsal etməklə deyil, həmin məhsulu vaxtında, sərfəli və rəqabətqabiliyyətli şəkildə bazara çıxarmaqla təmin olunur.

Azərbaycan da bu yeni iqtisadi reallıqları vaxtında qiymətləndirən ölkələr sırasındadır. Son illərdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri neft-qaz gəlirlərindən asılılığın mərhələli şəkildə azaldılması, qeyri-neft-qaz sektorunun inkişafı, regionlarda istehsal və məşğulluq imkanlarının genişləndirilməsi, yerli məhsulların xarici bazarlara çıxışının stimullaşdırılmasıdır. Bu siyasət təkcə iqtisadi artım məqsədi daşımır, həm də ölkənin iqtisadi suverenliyinin möhkəmləndirilməsinə, qlobal böhranlara qarşı dayanıqlılığının artırılmasına və milli istehsal potensialının daha səmərəli reallaşdırılmasına xidmət edir.

Lakin qeyri-neft-qaz sektorunun inkişafı yalnız istehsalın artırılması ilə məhdudlaşmır. Keyfiyyətli məhsul istehsal edən sahibkar üçün əsas çətinlik çox vaxt həmin məhsulu xarici bazara və ya ölkənin digər regionlarına rəqabətqabiliyyətli qiymətlə çatdırmaq olur. Uzaq bazarlara çıxış, alternativ ixrac istiqamətlərinin seçilməsi, multimodal daşımalar, sərhəd-keçid prosedurları və nəqliyyat xərcləri məhsulun son qiymətinə ciddi təsir göstərir. Bu baxımdan, müasir iqtisadi siyasətdə logistika artıq, sadəcə, daşıma xidməti deyil, ixrac qabiliyyətinin, regional inkişafın və bazar inteqrasiyasının əsas şərtlərindən biridir.

Bu məsələ Naxçıvan Muxtar Respublikası üçün daha həssas və strateji xarakter daşıyır. Uzun illər blokada şəraitində olan Naxçıvanda istehsalın genişləndirilməsi ilə yanaşı, həmin məhsulların Azərbaycanın digər ərazilərinə və daha geniş bazarlara çıxış imkanlarının artırılması xüsusi əhəmiyyət kəsb edir. "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda da regionun iqtisadi potensialının hərəkətə gətirilməsi, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi və muxtar respublikanın ölkə iqtisadiyyatına daha sıx inteqrasiyası əsas prioritetlər kimi müəyyənləşdirilib. Bu mənada, Naxçıvanın inkişafı yalnız regional sosial-iqtisadi məsələ deyil, Azərbaycanın ümumi iqtisadi arxitekturasında strateji tamamlayıcı halqadır.

Məhz belə bir iqtisadi və siyasi kontekstdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 9 iyun tarixli "Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı xüsusi əhəmiyyət daşıyır. Bu sənəd mövcud reallıqlara verilən operativ cavab olmaqla yanaşı, həm də gələcəyə hesablanmış uzunmüddətli iqtisadi mexanizmdir. Fərman qeyri-neft-qaz məhsullarının ixracında logistika xərclərinin yaratdığı maneələri azaltmağa, yerli istehsalçıların xarici bazarlarda rəqabət imkanlarını artırmağa, Naxçıvanda istehsal olunan məhsulların ölkənin digər ərazilərinə daşınmasını dəstəkləməyə və bütövlükdə Azərbaycanın qeyri-neft iqtisadiyyatının yeni inkişaf mərhələsinə keçidini sürətləndirməyə yönəlib.

Sənəddə Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixracı zamanı daşınma xərclərinə görə dövlət büdcəsi hesabına dəstəyin ödənilməsi nəzərdə tutulur. Bu, ixracatçılar üçün birbaşa maliyyə yükünün azaldılması deməkdir. Daha sadə ifadə etsək, dövlət yerli məhsulun xarici bazara çıxışında sahibkarın üzərinə düşən logistika xərcinin bir hissəsini öz üzərinə götürür. Bununla da Azərbaycan məhsullarının beynəlxalq bazarlarda qiymət baxımından daha rəqabətqabiliyyətli olması üçün real zəmin yaradılır.

Diqqətçəkən əsas məqamlardan biri də dəstəyin diferensial qaydada müəyyən edilməsidir. Fərmana əsasən daşıma xərclərinə görə ödəniləcək dəstək malın növündən, gömrük dəyərindən, ixrac edildiyi ölkədən və istifadə olunan nəqliyyat növündən asılı olacaq. Bu yanaşma dövlət dəstəyinin daha səmərəli bölüşdürülməsinə imkan verir. Dəstək bütün istiqamətlərə eyni qaydada deyil, daha çox iqtisadi nəticə verə biləcək, ixrac coğrafiyasını genişləndirəcək və yeni bazarlara çıxışı stimullaşdıracaq sahələrə yönəldilir. Beləliklə, Azərbaycan iqtisadiyyatında "məhsulun istehsalı" ilə "məhsulun hərəkəti" arasında uzun müddət mövcud olan məsafə azaldılır.

Fərmanın ikinci mühüm istiqaməti Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Sənədə əsasən Naxçıvanda istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ölkənin digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş xərclərə görə dövlət büdcəsi hesabına daxili daşıma dəstəyi ödəniləcək. Bu müddəa Fərmanın yalnız iqtisadi deyil, həm də ictimai-siyasi əhəmiyyətini artırır. Çünki Naxçıvanın blokada şəraitində olması uzun illər regionun istehsal və satış imkanlarına əlavə logistik yük yaradıb. Yeni mexanizm həmin yükün azaldılmasına və muxtar respublikanın ölkənin vahid iqtisadi məkanına daha sıx inteqrasiyasına xidmət edir.

Fərmanın yaradacağı yeni reallıqlar "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın prioritetlərini tamamlayan praktik maliyyə aləti kimi çıxış edir. Başqa sözlə, Dövlət Proqramı "istehsal et və inkişaf et" xəttini gücləndirirsə, Fərman "istehsal etdiyini bazara çıxar və rəqabətdə qal" imkanını yaradır. Bu iki sənəd birlikdə götürüldükdə daha böyük mənzərə ortaya çıxır: Naxçıvan artıq yalnız sosial-iqtisadi dəstəyə ehtiyacı olan region kimi deyil, ölkənin ümumi iqtisadi inkişaf modelində xüsusi rola malik strateji məkan kimi nəzərdən keçirilir.

Fərmanda ixrac daşıma dəstəyinin hesablanması mexanizmi də xüsusi diqqətə layiqdir. Daşıma dəmir yolu, hava və dəniz nəqliyyatı vasitələri, habelə Azərbaycan Respublikasında qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə, nağdsız qaydada ödənilmiş daşıma xərcinin 70 faizi dövlət tərəfindən qarşılanacaq. Daşıma Azərbaycan Respublikasında qeydiyyata alınmamış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə isə bu göstərici 50 faiz təşkil edəcək. Bu fərq təsadüfi deyil. Dövlət, eyni zamanda yerli nəqliyyat sektorunu da təşviq edir. Azərbaycan daşıyıcılarının prosesdə daha fəal iştirakı həm milli logistika bazarının inkişafına, həm də daşıma xidmətlərindən əldə olunan gəlirin ölkə daxilində qalmasına xidmət edir.

Gömrük dəyəri ilə bağlı müəyyən edilən limitlər də mühüm əhəmiyyət daşıyır. Avtomobil, dəmir yolu və hava nəqliyyatı ilə daşımalar zamanı ixrac edilən malın gömrük dəyərinin 15 faizi, dəniz nəqliyyatı ilə daşımalar zamanı isə 5 faizi yuxarı hədd kimi müəyyən olunur. Yekun dəstək məbləği faktiki daşıma xərci əsasında hesablanan məbləğlə gömrük dəyəri əsasında hesablanan məbləğdən ən az olanı kimi müəyyən edilir. Bu mexanizm dövlət vəsaitinin səmərəli istifadəsi baxımından vacibdir, çünki dəstəyin real iqtisadi ehtiyaca yönəlməsini təmin edir və daşıma xərclərinin süni şəkildə şişirdilməsi risklərini azaldır.

Nağdsız ödəniş tələbi də fərmanın çox mühüm tərəflərindən biridir. Dəstəyin yalnız nağdsız qaydada ödənilmiş daşıma xərclərinə tətbiq edilməsi şəffaflığın artırılmasına xidmət edir. Bu həm sahibkarların maliyyə intizamını gücləndirir, həm də dövlətin dəstək mexanizminə nəzarət imkanlarını artırır. Nəticədə, iqtisadi dövriyyənin rəsmiləşməsi, sənədləşmə mədəniyyətinin yüksəlməsi və biznes münasibətlərində hesabatlılığın artması üçün əlavə stimul yaranır.

Daxili daşıma dəstəyinin Naxçıvan üçün 70 faiz səviyyəsində müəyyən edilməsi xüsusi sosial-iqtisadi nəticələr vəd edir. Bu dəstək Naxçıvanda istehsal olunan məhsulların Azərbaycanın digər bölgələrinə daha sərfəli qiymətlə çatdırılmasına şərait yaradacaq. Bununla da Naxçıvan sahibkarı daha geniş bazara çıxış imkanı qazanacaq, istehsal həcmini artırmağa maraqlı olacaq, yeni iş yerləri yaranacaq və regionda iqtisadi fəallıq güclənəcək. Xüsusilə kənd təsərrüfatı, qida emalı, yüngül sənaye, tikinti materialları və digər qeyri-neft sahələri üçün bu mexanizm mühüm stimul rolunu oynaya bilər.

Fərmanın daha bir mühüm üstünlüyü onun uzunmüddətli xarakter daşımasıdır. Sənədə əsasən müvafiq dəstək mexanizmləri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2036-cı il sentyabrın 30-dək həyata keçiriləcək ixrac və daxili daşımalara münasibətdə tətbiq olunur. Bu isə sahibkarlar üçün onillik planlaşdırma üfüqü yaradır. İstehsalçı yalnız bu günün deyil, gələcək illərin bazar imkanlarını da nəzərə alaraq investisiya qərarı verə bilər. Uzunmüddətli dövlət dəstəyi biznes üçün sabitlik, investor üçün etimad, region üçün isə davamlı inkişaf perspektivi deməkdir.

Bununla yanaşı, malların Azərbaycan Respublikası mənşəli olmasının müəyyən edilməsi qaydası, dəstəyin şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısı, müraciətlərin qəbulu və baxılması qaydası, multimodal daşımalar üzrə hesablanma mexanizmi hazırlanmalıdır. Bu tapşırıqlar Fərmanın icrasında şəffaflıq, ünvanlılıq və məsuliyyət prinsipinin təmin olunmasına xidmət edir. Xüsusilə malların mənşəyinin müəyyən edilməsi çox vacibdir, çünki dövlət dəstəyi yalnız real olaraq Azərbaycanda istehsal olunan məhsullara yönəlməlidir. Bu, yerli istehsalçının müdafiəsi və dövlət vəsaitinin məqsədli istifadəsi baxımından prinsipial məsələdir.

Qeyd etdiklərimizi ümumiləşdirsək, cənab Prezidentin imzaladığı bu Fərman qeyri-neft-qaz sektorunun inkişafı, ixracın stimullaşdırılması, Naxçıvanın iqtisadi inteqrasiyası və milli logistika imkanlarının genişləndirilməsi baxımından kompleks əhəmiyyət daşıyır. Sənəd sahibkara birbaşa maliyyə dəstəyi verir, yerli məhsulun rəqabət qabiliyyətini artırır, dövlət dəstəyini şəffaf və hədəfli mexanizmə çevirir, Naxçıvanın blokada şəraitindən doğan logistik çətinliklərini yumşaldır və Azərbaycanın qeyri-neft iqtisadiyyatının gələcək inkişafı üçün daha möhkəm əsas yaradır. Onun gələcək üçün vəd etdiyi əsas perspektiv daha rəqabətli ixrac, daha fəal regionlar, daha güclü logistika sistemi və daha dayanıqlı milli iqtisadiyyatdır.

**Yusif MİRZƏZADƏ**
*Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri*



# Aqrar sektorun inkişafında yeni strateji hədəflər və yol xəritəsi

**Müasir çağırışlar və qlobal iqtisadi proseslər aqrar sektorun daha dayanıqlı, rəqabətqabiliyyətli və innovativ əsaslar üzərində inkişafını vacib sayır. Bu baxımdan, Prezident İlham Əliyevin cari il mayın 25-də imzaladığı Sərəncamla qəbul edilən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” aqrar sahənin gələcək inkişaf prioritetlərini müəyyən edən mühüm strateji sənəd kimi çıxış edir. Xatırlatmaq yerinə düşər ki, ötən illərdə dövlət dəstəyi nəticəsində kənd təsərrüfatı həm iqtisadi artımın, həm də ərzaq təhlükəsizliyinin əsas sütunlarından birinə çevrilib. 2025-ci ildə kənd təsərrüfatının ümumi məhsul istehsalı 14,2 milyard manata çatıb, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun ÜDM-də payı 5,9 faiz olub. Bu göstəricilər aqrar sektorun ölkə iqtisadiyyatında strateji rolunu daha da aydın şəkildə göstərir. Eyni zamanda 2024-cü illə müqayisədə 2025-ci ildə aqrar məhsulların ixracı 18,5 faiz artaraq qeyri-neft ixracına mühüm töhfə verib, sektorun xarici bazarlarda mövqeyini gücləndirib. Pomidor, fındıq və xurma kimi məhsullar üzrə ixtisaslaşma ixrac strukturunda müsbət tendensiya yaradır, xüsusilə fındıq Azərbaycanın dünya bazarında tanınan əsas kənd təsərrüfatı məhsullarından birinə çevrilib.**

Aqrar sektorun inkişafında dövlət dəstəyinin rolu xüsusi əhəmiyyət daşıyır. Son illərdə həyata keçirilən məqsədyönlü islahatlar, subsidiyaların genişləndirilməsi və fermerlərə göstərilən maliyyə dəstəyi kənd təsərrüfatında istehsalın artmasına mühüm töhfə verib. Belə ki, 2025-ci ildə fermerlərə 285 milyon manat əkin subsidiyasının ödənilməsi istehsalın stimullaşdırılmasına, təsərrüfatların dayanıqlılığının möhkəmlənməsinə və kənd yerlərində iqtisadi fəallığın yüksəlməsinə xidmət edib. Görülən tədbirlərin nəticəsi olaraq meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə ölkənin özünütəminetmə səviyyəsi 100 faizi ötüb ki, bu da ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın azaldılması baxımından mühüm nailiyyət hesab olunur. Eyni zamanda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri ümumi məşğulluğun, təxminən, 35 faizini təmin edərək regionların sosial-iqtisadi inkişafında, əhalinin gəlirlərinin artırılmasında və kənd yerlərində rifahın yüksəldilməsində əsas dayaqlardan birinə çevrilib. Dövlət tərəfindən həyata keçirilən dəstək mexanizmləri aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsinə, məhsuldarlığın artırılmasına və davamlı inkişafın təmin edilməsinə geniş imkanlar yaradır.

Əldə olunan müsbət nəticələrin davamlılığını təmin etmək və aqrar sektorun yeni inkişaf mərhələsinə keçidini sürətləndirmək məqsədilə qəbul edilmiş yeni Dövlət Proqramı qarşıdakı illər üçün əsas strateji istiqamətləri müəyyənləşdirir. Dövlət Proqramı aqrar sahədə dayanıqlı inkişaf modelinə keçidi sürətləndirməyi, intensiv və rəqabətqabiliyyətli istehsalın formalaşdırılmasını, dəyər zəncirlərinin genişləndirilməsini və fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının artırılmasını əsas məqsəd kimi müəyyən edir. Bu yanaşma balıqçılıq və akvakultura sahələrinin inkişafını da əhatə edərək sektorun strukturunun diversifikasiyasını gücləndirir. Sənəddə aqrar sahənin resurs təminatının yaxşılaşdırılması, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil və elmin inkişafı, innovasiya və rəqəmsallaşmanın genişləndirilməsi, aqrar emal və logistika infrastrukturunun modernləşdirilməsi kimi istiqamətlər geniş yer alır. Eyni zamanda subsidiya və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, institusional islahatların dərinləşdirilməsi və qanunvericilik bazasının yenilənməsi də prioritet məsələlərdəndir. Dövlət Proqramının icrası nəticəsində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun 2026-2030-cu illər üzrə ortaillik artımı ən azı 2 faiz təşkil edəcəyi, eyni zamanda kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının həcminin ortaillik 6 faiz artacağı gözlənilir.



Dövlət Proqramında bitkiçilik sahəsinin inkişafına xüsusi diqqət yetirilir. Aqrar istehsalın əsas istiqamətlərindən biri olan bitkiçilik üzrə məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi və rəqabətqabiliyyətli istehsalın formalaşdırılması prioritet vəzifələr kimi müəyyənləşdirilib. Bu sahədə əsas məqsədlərdən biri taxılçılığın inkişafıdır. İxtisaslaşmış rayonlarda buğda üzrə məhsuldarlığın 2030-cu ilədək 50 sentnerə çatdırılması və istehsalda, təxminən, 20 faiz artıma nail olmaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsi hədəflənir. Pambıqçılıqda məhsuldarlığın artırılması ilə yanaşı, emal sənayesinin genişləndirilməsi və klaster yanaşmasının tətbiqi nəzərdə tutulur. Həmçinin suvarma sistemlərinin modernləşdirilməsi proqramın əsas istiqamətlərindən biridir. Müasir suvarma texnologiyalarının tətbiq olunduğu sahələrin 130 min hektardan 300 min hektara çatdırılması planlaşdırılır ki, bu da məhsuldarlığın artırılması və su resurslarından səmərəli istifadə baxımından mühüm əhəmiyyət daşıyır.



İntensiv və superintensiv bağçılığın genişləndirilməsi, istixana təsərrüfatlarının inkişafı və aqroparkların yaradılması ixrac potensialının artırılmasına xidmət edir. Logistika infrastrukturunun gücləndirilməsi məqsədilə soyuducu anbarların və müasir taxıl siloların yaradılması məhsul itkilərinin azaldılmasına və bazarlara çıxışın yaxşılaşdırılmasına şərait yaradır. Bu məqsədlə 2030-cu ilədək əlavə 100 min tonluq soyuducu anbar infrastrukturunun yaradılması, 150 min ton tutumlu müasir taxıl silolarının qurulmasının dəstəklənməsi hədəflənir. Dövlət Proqramında, həmçinin heyvandarlıq sektorunun inkişafı ilə bağlı fundamental tədbirlər nəzərdə tutulub. Heyvandarlıq sektorunda məhsuldarlığın artırılması, cins heyvanların payının yüksəldilməsi və özünütəminetmə səviyyəsinin gücləndirilməsi prioritetlərdəndir. 2030-cu ilədək yüksək məhsuldar cins heyvanların ümumi sürüdə payının faktiki 2,5 faizdən artırılaraq 10 faizə çatdırılması hədəflənir. Süd istehsalının, təqribən, 10 faiz, mal əti istehsalının 20 faiz artırılması, bununla da özünütəminetmənin yaxşılaşdırılması, o cümlədən mal əti ilə təminata nail olunması əsas məqsədlərdəndir. Quşçuluq sektorunun inkişafı istiqamətində müasir quşçuluq damlarının qurulması və mövcud damların modernləşdirilməsi, modern kəsimxanaların yaradılması, torpaq təyinatı ilə bağlı mövcud çətinliklərin aradan qaldırılması, damazlıq işinin təşviq edilməsi, həmçinin quşçuluq müəssisələrinin kommunal xidmətlərə (elektrik, qaz) qoşulma xərclərinin subsidiyalaşdırılması kimi tədbirlər nəzərdə tutulub. Bununla da 2030-cu ilədək istehsalın, təqribən, 30 faiz artırılması hesabına quş əti ilə özünütəminetmənin yaxşılaşdırılması hədəflənir. Balıqçılıq və akvakultura sahəsində istehsalın 7,7 min tona çatdırılması, qanunvericiliyin təkmilləşdirilməsi və dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi nəzərdə tutulur.





Aqrar sektorun inkişafında xüsusi diqqətçəkən mühüm istiqamətlərdən biri də Qarabağ və Şərqi Zəngəzurun yeni aqrar inkişaf mərkəzinə çevrilməsidir. İşğaldan azad edilmiş ərazilər geniş torpaq ehtiyatları, münbit iqlim və su resursları ilə böyük istehsal potensialına malikdir. Bu bölgələrdə kənd təsərrüfatının inkişafı Böyük Qayıdış prosesinin əsas iqtisadi sütunlarından biri kimi çıxış edir. Burada “Ağıllı kənd” konsepsiyası, müasir aqroparklar, pivot suvarma sistemləri və yeni infrastruktur layihələri tətbiq olunur. Üzümçülük, heyvandarlıq, taxılçılıq, bağçılıq və arıçılıq ənənələrinin bərpası nəzərdə tutulur ki, bu regionun iqtisadi dirçəlişini sürətləndirəcək və kənd yerlərində məşğulluğun artmasına şərait yaradacaq.

Ümumilikdə, onu vurğulamaq olar ki, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” aqrar sektorun qarşıdakı dövrdə inkişaf istiqamətlərini müəyyən edən mühüm strateji sənəddir. Proqramın həyata keçirilməsi kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə, innovativ texnologiyaların tətbiqinin genişlənməsinə, ərzaq təhlükəsizliyinin daha da möhkəmlənməsinə və ixrac potensialının artırılmasına əhəmiyyətli töhfə verəcək. Eyni zamanda regionların sosial-iqtisadi inkişafının sürətlənməsinə, yeni iş yerlərinin yaradılmasına və kənd əhalisinin rifahının yüksəldilməsinə xidmət edəcək. Dövlət dəstəyi, müasir idarəetmə yanaşmaları və innovativ həllərin tətbiqi sayəsində Azərbaycanın aqrar sektoru daha dayanıqlı, rəqabətqabiliyyətli və yüksək əlavə dəyər yaradan sahəyə çevrilərək ölkənin iqtisadi inkişafında strateji rolunu daha da gücləndirəcək.

**Nail ƏSGƏROV**



# Qərbi Azərbaycanın səsi bu dəfə Ordubaddan yüksəldi

## "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı keçirilib

### Əsas məqsədimiz Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin təmin olunmasıdır




"Bildiyiniz kimi, bu artıq üçüncü konqres-festivaldır və hər üç tədbir böyük maraqla qarşılanır. Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı Azərbaycanın xarici siyasət konsepsiyasının mühüm prioritet istiqamətlərindən biridir. Məlum olduğu üzrə ölkəmizdə Qərbi Azərbaycan İcması fəaliyyət göstərir. İcmanın əsas məqsədi Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, bu torpaqlardan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının müdafiəsi və onların doğma yurdlarına sülh yolu ilə qayıdışının təmin edilməsidir. İcma rəhbərliyi bu istiqamətdə beynəlxalq platformalarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatında da fəal iş aparır".

Bu sözləri Naxçıvanda jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Ziyafət Əsgərov bildirib.

O deyib: "Hər bir qərbi azərbaycanlının öz ata-baba yurduna qayıtmaq hüququ var və bu onların qanuni, tarixi və mənəvi haqqıdır. Çünki həmin torpaqlar bizim əzəli yurdlarımızdır.

Bəzən Ermənistan və erməni diasporu tərəfindən belə bir fikir formalaşdırılmağa çalışılır ki, Qərbi Azərbaycana qayıdış hansısa ərazi iddiası deməkdir. Bu, tamamilə əsassız yanaşmadır. Biz yalnız sülh şəraitində, beynəlxalq hüquq normalarına uyğun olaraq öz doğma torpaqlarımıza qayıdıb orada təhlükəsiz və ləyaqətli şəkildə yaşamaq istəyirik. Eyni zamanda Qərbi Azərbaycanın tarixi və mədəni irsinin öyrənilməsi, gələcək nəsillərə çatdırılması istiqamətində də mühüm işlər görülür. Hesab edirəm ki, belə konqres-festivallar bu məqsədlərə xidmət edən mühüm platformalardır".

Ziyafət Əsgərov vurğulayıb ki, bu gün Azərbaycan və Ermənistan arasında faktiki olaraq yeni münasibətlər mərhələsinin formalaşması üçün imkanlar yaranıb: "Əgər sülh prosesi uğurla yekunlaşarsa, gələcəkdə insanlar öz doğma torpaqlarına qayıda və həmin ərazilərdə dinc şəraitdə yaşaya bilərlər.

Hüquqi baxımdan isə hələ həllini gözləyən məsələlər mövcuddur. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması vacib şərtlərdən biridir. Ermənistan rəhbərliyi bu istiqamətdə referendum keçiriləcəyini bəyan edib. Ümid edirik ki, verilən vədlər yerinə yetiriləcək və bu, iki ölkə arasında münasibətlərin normallaşmasına mühüm töhfə verəcək.

Belə olduğu təqdirdə, Azərbaycan və Ermənistan arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafı üçün yeni imkanlar yaranacaq. Əsas məqsədimiz Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin təmin olunması, onilliklər boyu davam edən qarşıdurmalara son qoyulmasıdır".

"Biz istəyirik ki, gələcəkdə regionda müharibəyə ehtiyac qalmasın və bütün məsələlər dialoq və qarşılıqlı hörmət əsasında həll edilsin. Bununla belə prosesin gələcək inkişafı Ermənistanın atacağı addımlardan, sülh gündəliyinə nə dərəcədə sadiq qalacağından asılı olacaq. Azərbaycan isə öz milli maraqlarını rəhbər tutaraq baş verən proseslərə uyğun şəkildə siyasətini davam etdirəcək", – deyə Milli Məclisin sədr müavini əlavə edib.

### Konqres-festival soydaşlarımızın öz ata-baba yurdlarına qayıdacağına olan inamın və qətiyyətin ifadəsidir




"Tarixi torpaqlarımızda yaşayan qərbi azərbaycanlı soydaşlarımızın məruz qaldığı bütün faciələrə birbaşa Naxçıvan və bu qədim torpaqlar şahidlik edib. Bu baxımdan, bu cür tədbirlərin məhz burada keçirilməsi həm də qarşı tərəfə ünvanlanan mühüm bir mesajdır. Bu, soydaşlarımızın öz ata-baba yurdlarına qayıdacağına olan inamın və qətiyyətin ifadəsidir".

Bu sözləri Naxçıvanda jurnalistlərə müsahibəsində Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli deyib.

O qeyd edib ki, konqres-festival çərçivəsində Qərbi Azərbaycana məxsus zəngin mədəni irsin nümayiş etdirilməsi də xüsusi əhəmiyyət kəsb edir: "Bununla dünyaya çatdırırıq ki, Qərbi Azərbaycan torpaqlarında soydaşlarımız əsrlərboyu zəngin maddi və mənəvi irs formalaşdırıblar. Bu insanların öz doğma yurdlarına qayıtması həm onların fundamental insan hüququ, həm də beynəlxalq hüququn tanıdığı qanuni haqqıdır. Heç bir beynəlxalq norma və ya hüquqi prinsip bu insanların öz doğma evlərinə qayıtmaq hüququnu inkar edə bilməz".

Əziz Ələkbərlinin sözlərinə görə, bu gün Ermənistan rəhbərliyi həmin qayıdış hüququnu tanımaqdan yayınmağa çalışır. Lakin Prezident İlham Əliyevin bölgədə yaratdığı yeni reallıqlar qarşı tərəfə açıq mesaj verir ki, qərbi azərbaycanlıların öz ata-baba yurdlarına qayıdışı qaçılmazdır. Ermənistan rəhbərliyi gec olmadan bu reallığı qəbul etməli, bu tarixi həqiqəti dərk etməli və soydaşlarımızın sülh və qarşılıqlı anlaşma şəraitində öz doğma torpaqlarına qayıdışına şərait yaratmalıdır.

Əslində, hansı formada olursa-olsun, bu insanların öz ata-baba yurdlarına qayıdışı qarşısıalınmaz bir prosesdir. Ermənistan dövlətinin və onun havadarlarının bu qayıdışın qarşısını almaq imkanları yoxdur və olmayacaq. Çünki bu gün dünyada milyonlarla qərbi azərbaycanlı yaşayır və onların böyük əksəriyyəti doğma yurdlarına qayıdış ideyası ətrafında birləşib.

"Prezidentimizin də vurğuladığı kimi, öz yurdlarımıza sülh yolu ilə qayıtmaq istəyirik. Bölgədə yenidən müharibənin baş verməsini arzulamırıq. Qarşı tərəf də bu sülhpərvər mövqeyimizi düzgün qiymətləndirməli, onu zəiflik deyil, sülh və əməkdaşlıq iradəsinin təzahürü kimi qəbul etməlidir. Ermənistan bu reallığı anlayaraq qərbi azərbaycanlıların doğma yurdlarına təhlükəsiz, ləyaqətli və dinc şəkildə qayıdışına razılıq verməli və bunun təmin olunmasına öz töhfəsini göstərməlidir", – deyə Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri əlavə edib.

### İnanırıq ki, "Qərbi Azərbaycana qayıdış" ideyası öz real nəticələrini verəcək

"Ölkəmizin həyatında çox mühüm bir hadisə baş verir. Naxçıvanda, qədim Ordubad şəhərində "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı keçirilir. Qərbi Azərbaycana qayıdış konsepsiyası çərçivəsində həyata keçirilən bu mötəbər tədbir öz mahiyyəti və verdiyi mesajlarla xüsusi əhəmiyyət daşıyır.

Burada toplaşan insanların coşqusu, simalarındakı sevinc və qətiyyət bir həqiqəti ifadə edir: biz Qərbi Azərbaycana mütləq qayıdacağıq. İrəvanda, Göyçədə, Dərələyəzdə və tarixi yurdlarımızın hər birində belə elmi və mədəni tədbirlərin keçiriləcəyi gün uzaqda deyil.

Konqres-festivalın əsas məramı elmi



əsaslara söykənməkdir".

Bu sözləri Ordubadda jurnalistlərə müsahibəsində Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor Mahirə Hüseynova deyib.

Professor qeyd edib ki, tədbirə qatılan alim və tədqiqatçıların hər biri Qərbi Azərbaycanla bağlı araşdırmalarını, elmi məqalələrini və tarixi faktlara əsaslanan tədqiqatlarını təqdim edir. Bu işlərin əhəmiyyəti ondadır ki, onların hər biri arxiv materiallarına, qədim mənbələrə, tarixi sənədlərə və xəritələrə söykənərək Qərbi Azərbaycanın tarixi həqiqətlərini ortaya qoyur.

Naxçıvan Dövlət Universiteti bu istiqamətdə mühüm təşəbbüslərlə çıxış edir və təşkil olunan bu konqres-festival da həmin fəaliyyətin parlaq nümunələrindən biridir.

"Tədbirin keçirildiyi məkanın seçilməsi də olduqca rəmzi məna daşıyır. Qədim Ordubad Zəngəzur dəhlizi üzərində yerləşən, strateji əhəmiyyətə malik bir bölgədir. Bu ərazi həm Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək nəqliyyat xəttinin, həm də regionun gələcək inkişaf perspektivlərinin mühüm tərkib hissəsidir. Biz bu gün qədim Ordubadda toplaşmışıq və əminliklə deyə bilərik ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə bu bölgə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. İnanırıq ki, tarixi ədalətin bərpası və "Qərbi Azərbaycana qayıdış" ideyası öz real nəticələrini verəcək, xalqımız öz tarixi yurdlarına qovuşacaq", – deyə Mahirə Hüseynova əlavə edib.



### Yaddaş yaşadıqca yurd da yaşayır

Ordubadda keçirilən "Qərbi Azərbaycana qayıdış" konqres-festivalı qədim yurd yerlərinin xatirələrini, milli-mənəvi dəyərləri və qayıdış arzularını bir yerə topladı. Bu festival köhnəlmiş xatirələrin vərəqlənməsindən daha çox, zamanın sınağından keçib gələn sönməz bir ocağın yenidən alovlanması idi.

Meydanda addım-addım Qərbi Azərbaycanın mənəvi coğrafiyası canlanırdı. Aşıqların sinəsinə yasladığı sazların pərdələrindən süzülən hər nəğmə sanki Göyçənin, İrəvanın, Zəngəzurun dağlarından əsən mehi bura daşıyırdı. Qədim el havaları həm də o torpaqların harayı, nisgili və sarsılmaz dönüş ümidi idi. Qəlblərdən süzülüb gələn hər yanıqlı bayatı, hər xalq mahnısı festivalın ruhuna hoparaq iştirakçıları zamanın o üzünə, doğma yurd yerlərinə apardı.

Festivala qədəm qoyan hər kəs sazın kövrək sədaları, bayatıların hikmət dolu misraları və yallının ahəngdar ritmi ilə qarşılaşırdı. Elə bil sazın hər simi Qərbi Azərbaycanın dağlarından, dərələrindən, bulaqlarından bir xəbər gətirirdi. Burada Qərbi Azərbaycanın zəngin folkloru yenidən canlanır, illərin o tayından gələn mədəni irs bu günün nəfəsi ilə qovuşurdu.

Doğma yurd yerlərindən uzaq düşsələr də, insanların qəlbində yaşatdığı adət-ənənələr, el nəğmələri və folklor nümunələri bu gün də öz canlılığını qoruyub saxlayır. Festival çərçivəsində təşkil olunan görüşlərdə Qərbi Azərbaycan sakinləri doğma torpaqlarla bağlı xatirələrini bölüşür, söylədikləri bayatılarla keçmişin izlərini bu günə daşıyırdılar.

Festivalın ən təsirli anlarından biri isə Qərbi Azərbaycandan olan ağbirçəklərlə etdiyimiz söhbət oldu. Zamanın ağır izlərini çiyinlərində daşısalar da, onların qəlbində doğma yurdun xatirələri solmayan bir bahar kimi yaşayır.

62 yaşlı Fatma xanım danışdıqca sanki zaman pərdəsi aralanır, o, illərin o tayına, uşaqlıq və gənclik illərinin işıqlı günlərinə qayıdırdı. Doğulub boya-başa çatdığı kəndin adını çəkən kimi üzündə nisgil və sevincin qarışdığı bir təbəssüm çiçəklənirdi. "O vaxtlar kəndimizdə hamı bir-birini tanıyırdı. El şənlikləri, toylar, bayramlar bir başqa olurdu. İnsanlar mehriban yaşayırdı", – deyə o, kövrək, amma qəlbə toxunan səslə xatırlayır.

Bir qədər sonra onun dodaqlarından bir bayatı süzülüb gəldi. Hər misra doğma yurda uzanan görünməz bir yol, hər söz keçmiş günlərin işığına bürünmüş bir xatirə idi. Səsindəki Vətən sevgisi külək kimi ətrafa yayılır, festival iştirakçılarını dərin duyğulara qərq edirdi.



*Gəzirəm suz dağları,*
*Bağlayıb buz dağları.*
*Hər kəsə şirin olar,*
*Öz yeri, öz dağları.*

59 yaşlı Yazgül xanım da xatirələrini bölüşərkən kəndlərinin adını sevgi ilə dilə gətirir, oradakı bulaqların şəffaflığından, dağların əzəmətindən, yaşıl düzənliklərin sonsuz gözəlliyindən danışırdı. "İnsan doğulduğu yeri heç vaxt unutmur. İllər keçsə də, o torpaqlar həmişə ürəyimizdə yaşayır", – deyə bildirir.

*Əzizim kətan yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Qürbət yer cənnət olsa,*
*Yenə də vətən yaxşı.*

Hər iki ağbirçəyin söylədiyi bayatılar folklorun qədim inciləri



olaraq bir ömrün yaddaşına hopmuş duyğuların, bir elin-obanın həsrət və ümidlə yoğrulmuş taleyinin dərin izlərini özündə əks etdirirdi.

Əslində, yaddaş yaşadıqca yurd da ölmür. Bu kövrək bayatılardan keçən hər misra uzaqlarda bərq vuran o doğma torpaqlara, o müqəddəs ocaqlara doğru uzanan ən sarsılmaz mənəvi cığırdır.

Elnurə CƏFƏROVA

# Ordubadda Qərbi Azərbaycanın tarixi, mədəniyyəti və zəngin irsini əks etdirən sərgilər təşkil olunub



Ordubad şəhərində keçirilən “Qərbi Azərbaycana qayıdış” III konqres-festival çərçivəsində Qərbi Azərbaycanın tarixi, mədəniyyəti və zəngin irsini əks etdirən sərgilər təşkil olunub. Sərgilər festival iştirakçılarının böyük marağına səbəb olub.

Qərbi Azərbaycanın qədim xalçaçılıq ənənələrini yaşadan xalça sərgisində bölgəyə məxsus ornamentlər, naxışlar və əl işləri nümayiş etdirilib. Sərgiyə baxanlar xalçaçılıq sənətinin xalqımızın milli-mədəni irsində tutduğu mühüm yer haqqında ətraflı məlumat əldə ediblər.

Rəsm sərgisində isə Qərbi Azərbaycanın təbiəti, tarixi abidələri, qədim yaşayış məskənləri və doğma yurd həsrəti müxtəlif rəng çalarları ilə canlandırılıb. Gənc və peşəkar rəssamların əsərləri ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Memarlıq sərgisində Qərbi Azərbaycanda mövcud olmuş tarixi-mədəni abidələrin fotoşəkilləri və məlumat stendləri nümayiş etdirilib. Burada bölgənin memarlıq nümunələri, məscidləri, körpüləri və digər tarixi tikililəri haqqında məlumatlar təqdim olunub.

Sərgilər arasında Qərbi Azərbaycan florasına həsr olunmuş bölmə də maraq doğurub. Bu guşədə bölgənin bitki örtüyü, nadir flora nümunələri və təbii sərvətləri barədə məlumatlar yer alıb.

Kitab, qəzet və jurnal sərgisində isə Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru və görkəmli şəxsiyyətləri haqqında nəşrlər nümayiş etdirilib. Sərgi iştirakçıları müxtəlif dövrlərdə işıq üzü görmüş kitablarla yanaşı, qəzet və jurnal nümunələri ilə də tanış olmaq imkanı əldə ediblər.

Təşkil olunan sərgilər Qərbi Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliği, gələcək nəsillərə çatdırılması və bu irsə marağın artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Festival iştirakçıları sərgilərin bölgənin keçmişini daha yaxından öyrənmək və milli yaddaşı yaşatmaq üçün dəyərli imkan yaratdığını bildiriblər.

✍ Elnurə CƏFƏROVA







# Qərbi Azərbaycanın zəngin mətbəx mədəniyyətini daha yaxından tanımaq imkanı yaradılır





Qərbi Azərbaycan mətbəxi əsrlərboyu formalaşmış zəngin kulinariya irsinin daşıyıcısıdır. Bu mətbəxə məxsus yeməklər xalqın həyat tərzini, adət-ənənələrini və tarixini özündə yaşadan mühüm mədəniyyət nümunələridir.

Ordubad şəhərində keçirilən “Qərbi Azərbaycana qayıdış” III konqres-festivalında təqdim olunan təamlar ziyarətçiləri qədim dadlarla tanış edib. Süfrələrdə bir çoxlarının adını ilk dəfə eşitdiyi yeməklər də yer alıb. Qovut, əriştə aşı, İrəvan







kətəsi, fəsəli, xaşıl, qurut aşı, döşəmə plov, daş küftə, çəkmə aşı, kələm və yarpaq dolması, halva, əyirdək, süzmə qatıq, meyvə quruları, lavaşa, müxtəlif turşular və mürəbbələr festival iştirakçılarının böyük marağına səbəb olub.

Festival iştirakçılarından Naibə Hacıyeva bildirir ki, bu cür tədbirlər gənc nəslin milli kulinariya irsini tanıması baxımından mühüm əhəmiyyət daşıyır: “Bu yeməklərin bir çoxunun adını yalnız valideynlərimizdən eşitmişik. Onları burada görmək və dadına baxmaq bizim üçün çox maraqlı təcrübədir”.

Qərbi Azərbaycan mətbəxinin əsas xüsusiyyətlərindən biri təbii məhsullardan istifadə olunması və reseptlərin nəsildən-nəslə ötürülməsidir. Hər bir yeməyin arxasında bir ailə ənənəsi, bir həyat hekayəsi dayanır.

Əsrlərboyu nəsildən-nəslə ötürülən reseptlər, ailə süfrələrinin ayrılmaz hissəsinə çevrilən təamlar və hər biri bir yurdun xatirəsini yaşadan dadlar Qərbi Azərbaycan mətbəxini, sadəcə, yeməklər toplusu deyil, xalqın tarixini, məişətini və mədəniyyətini əks etdirən zəngin irsə çevirib.

Bu mətbəxin əsas özəlliyi təbii məhsullardan istifadə olunması və yeməklərin hazırlanmasında ənənəvi üsulların qorunub saxlanılmasıdır. Ət və süd məhsulları, müxtəlif dənli bitkilər, dağlarda yetişən ətirli otlar və təbii ədviyyatlar Qərbi Azərbaycan süfrəsinin əsas elementlərini təşkil edir.

Festivalda tanış olduğumuz Qərbi Azərbaycanın Qafan şəhərindən olan Nailə nənə də bu barədə maraqlı məlumatlar verdi. Onun sözlərinə görə, Qərbi Azərbaycan mətbəxində plov növləri, qapama, müxtəlif xəmir yeməkləri, dolmalar, qurut əsaslı təamlar və sacda hazırlanan yeməklər xüsusi yer tutur. İrəvan kətəsi, fəsəli, əriştə aşı, umac və xaşıl kimi yeməklər bu gün də qədim kulinariya ənənələrinin yaşadıldığını göstərir.

Nailə nənə qeyd edir ki, bu yeməklərin hər biri yalnız özünəməxsus dadı ilə deyil, həm də arxasında dayanan həyat tərzi ilə seçilir. Keçmişdə toylar, el şənlikləri və ailə məclisləri məhz bu təamlarla daha da yaddaqalan olurdu. Bu gün isə həmin dadlar xalqın mədəni yaddaşının ayrılmaz hissəsi kimi qorunur və yaşadılır.

Ordubadda keçirilən festival da məhz bu zəngin kulinariya irsinin tanıdılmasına xidmət edir. Burada nümayiş olunan təamlar ziyarətçilərə Qərbi Azərbaycanın zəngin mətbəx mədəniyyətini daha yaxından tanımaq imkanı yaradır. Festival bir daha göstərdi ki, xalqın yaddaşında yaşayan bu dadlar, sadəcə, mətbəx nümunəsi deyil, həm də milli kimliyimizin ayrılmaz hissəsidir.

✍ Zəhra VƏLİYEVA

# Qərbi Azərbaycanın nəşrlərdə və fotolarda yaşayan tarixi də festivalda nümayiş etdirilib





Ordubadda keçirilən “Qərbi Azərbaycana qayıdış” III konqres-festival çərçivəsində təşkil olunan sərgilər insan ruhunu oxşamaqda, bəzən isə qəlbləri kövrəltməkdə davam edib. Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası, Naxçıvan Hərbi Kolleci və qərbi azərbaycanlılar tərəfindən təşkil olunan sərgilərdə Qərbi Azərbaycanın, xüsusilə Dərələyəzin zəngin tarixini, qədim mədəniyyətini və əsrlərin süzgəcindən keçmiş folklorunu əks etdirən nadir nəşrlər, şeir kitabları, jurnallar, tarixi fotoşəkillər insanın diqqətini ilk baxışdan özünə çəkir. Bu nəşrlər, sadəcə, kağız yox, yaddaşların qapısını açan sehrli açarlardır, itib-batmağa qoymadığımız keçmişin canlı şahidləridir.

Nəşrlər sırasında ilk olaraq əslən Şərur-Dərələyəz qəzasından olan filologiya elmləri doktoru, dilçi-türkoloq, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Həsən Mirzəyevin “Dərələyəz folkloru”, “Deyilən söz yadigardır”, “Qərbi Azərbaycanın Dərələyəz mahalı” kitabları ziyarətçiləri sanki o torpaqlara aparıb çıxarır. Filologiya elmləri doktoru, professor Mahirə Nağıqızının “Lövbər adam”, “Salam olsun”, “Sözün və əməyin yaratdığı tarix”, “Ruhuna beşiksə, tanı, Vətəndir” əsərləri, eləcə də türk dilinə tərcümə olunmuş “Konuşan taşlar” kitabı isə ziyarətçiləri sanki söz sehrinin içinə çəkir, ovsunlayır, düşündürür, hiss etdirir. Burada, həmçinin professor İbrahim Kazımbəylinin “Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix” əsəri, el aşığı Aşıq Şəmşirin “O Kürün, Arazın Tərtəriyəm mən” şeirlər və bayatılar toplusu, eləcə də Aşıq Alı kimi söz ustadlarının misralarından ibarət qiymətli kitablar da sərgilənib. Hər kitab bir yanğının, bir həsrətin, bir döyünən ürəyin ifadəsidir. Sərgiyə ayrıca bir can, ayrıca bir ruh gətirən isə “Dərələyəz” qəzetinin yeni buraxılışları və Qərbi Azərbaycanın müxtəlif bölgələrindən qalan ağ-qara tarixi fotolar, sənədlərdir. Qəzeti əlimizə alıb həmin tarixi yerlərin adını qəzetin sərlövhəsində gördükdə insan bir anlığa dayanır və düşünür: “Dərələyəz” və “Şərq qapısı” qəzeti kimi nəşrləri bir gün həmin torpaqlarda birgə oxumaq nəsib olacaq.

Sərgilənən bu fotolara baxanda zaman sanki geri qayıdır, ürək bir anlıq sıxılır, bir an içində kiminləsə ailə xatirələrinin içinə girir, kiminləsə uşaqlıq illərini, sevdikləri ilə birgə yaşadığı kəndin küçələrini, həyətlərini xatırlayırsan. Bu sərgi, sadəcə, bir nümayiş deyil, qayıdışın mənəvi abidəsi, yaddaşların dirçəlişi və xalqın öz köküylə üzbəüz dayanmasıdır.

✍ Rafiq TƏHMƏZ





# Gələcəyin peşəkarları burada yetişir:
## *Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi*

Müasir dövrdə hər bir ölkənin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdən biri güclü insan kapitalının formalaşdırılmasıdır. İnsan kapitalının inkişafında isə təhsil xüsusi rol oynayır. Təhsil yalnız nəzəri bilik əldə etmək üçün deyil, eyni zamanda insanın cəmiyyət üçün faydalı, bacarıqlı və peşəkar şəxs kimi yetişməsinə xidmət edir. Bu baxımdan, peşə təhsili xüsusi əhəmiyyət daşıyır. Çünki peşə təhsili insanlara konkret sənət öyrədir, onları əmək bazarına hazırlayır və gələcək həyatlarında müstəqil şəkildə fəaliyyət göstərmələrinə imkan yaradır.



Müxtəlif texniki və xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması iqtisadiyyatın inkişafına birbaşa təsir göstərir. Bu gün dünya ölkələrinin əksəriyyətində peşə təhsilinə xüsusi diqqət ayrılır. Çünki yalnız alitəhsilli mütəxəssislərlə deyil, həm də bacarıqlı ustalar, texniki işçilər, xidmət sahəsində çalışan peşəkar kadrlarla güclü iqtisadiyyat qurmaq mümkündür. Elektrik ustası, qaynaqçı, aşpaz, proqramçı, dərzi, avtomexanik, aqrar mütəxəssis və digər peşə sahibləri cəmiyyətin gündəlik həyatında əvəzolunmaz rol oynayırlar.






Azərbaycanda da son illər peşə təhsilinin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təhsil sahəsinə, xüsusilə də peşə təhsilinə böyük diqqət və qayğı göstərilir. Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulamışdır ki, ölkənin gələcək inkişafı üçün peşəkar kadrlara böyük ehtiyac vardır. Bu məqsədlə ölkədə yeni peşə təhsili müəssisələri yaradılır, mövcud məktəblər müasir avadanlıqlarla təmin olunur, beynəlxalq təcrübə öyrənilir və gənclərin peşə təhsilinə marağının artırılması istiqamətində mühüm addımlar atılır.

Hazırda ölkəmizdə peşə təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində geniş islahatlar həyata keçirilir. Müxtəlif regionlarda yeni peşə məktəblərinin və peşə tədris mərkəzlərinin fəaliyyətə başlaması gənclər üçün yeni imkanlar yaradır. Texnologiyanın inkişafı yeni peşələrin yaranmasına səbəb olur və bu da peşə təhsilinin aktuallığını daha da artırır. Artıq bir çox gənc anlayır ki, yalnız diplom deyil, bacarıq və peşəkarlıq da uğurun əsas açarıdır.

Naxçıvan Muxtar Respublikasında peşə təhsilinin inkişafı istiqamətində həyata keçirilən mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyətə başlamasıdır. Mərkəz 2024-cü ildə fəaliyyətə başlayaraq qısa müddət ərzində peşə təhsili sahəsində özünü nümunəvi təhsil müəssisələrindən biri kimi tanıtmağa nail olub. Müasir tədris metodlarının tətbiqi, praktik biliklərin ön planda saxlanılması, innovativ yanaşmalar və peşəkar müəllim heyətinin fəaliyyəti burada təhsilin keyfiyyətini daha da artırıb.

Biz də mərkəzdəki real vəziyyətlə tanış olmaq, tədris prosesini yaxından izləmək üçün müəssisəyə üz tutduq. Bizi mərkəzin direktor müavini Cəmilə Hüseynova qarşıladı. Cəmilə xanımla mərkəzin fəaliyyəti, tələbələrin uğurları və gələcək planlar barədə həmsöhbət olduq.

***– Cəmilə xanım, ilk növbədə, bilmək istərdik, mərkəzə qəbul prosesi necə aparılır və tələbələr üçün hansı imkanlar mövcuddur?***

– Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi 2024-2025-ci tədris ilində ilk tələbələrini qəbul etmişdir. Qısa müddət ərzində mərkəzə maraq əhəmiyyətli dərəcədə artmış və hazırda burada 400-dən çox tələbə təhsil almaqdadır. Mərkəzimizə qəbul həm 9 illik, həm də 11 illik təhsil bazasından aparılır. Qəbul prosesi elektron sistem vasitəsilə həyata keçirilir və namizədlər attestat və şəxsiyyət vəsiqəsi əsasında müraciət edərək beş ixtisas seçimi etmək imkanı qazanırlar. Təhsil yüksək texniki peşə, texniki peşə və ilk peşə istiqamətləri üzrə həyata keçirilir. Onu da qeyd edim ki, dövlət sifarişi əsasında təhsil alan tələbələrimiz təqaüdlə təmin olunurlar. 2024-2025-ci tədris ilində mərkəzin ilk məzunlarına diplomların təqdim olunması əlamətdar hadisələrdən biri olmuşdur. Ümumilikdə, 54 tələbə məzun adını qazanmış, onlardan 3 nəfər fərqlənmə diplomuna layiq görülmüşdür. Bu uğur mərkəzdə aparılan keyfiyyətli tədrisin, müəllimlərin zəhmətinin və tələbələrin peşəyə olan marağının parlaq göstəricisidir.

***– Hazırda mərkəzdə hansı ixtisaslar üzrə tədris aparılır və əmək bazarının tələblərinə necə cavab verilir?***

– Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində əmək bazarının tələblərinə uyğun müxtəlif ixtisaslar üzrə tədris aparılır. Yüksək texniki peşə təhsili istiqamətində təhsil alan tələbələrimiz Mühasibat uçotu, Nəqliyyat vasitələrinin texniki istismarı, Elektronika və kommunikasiya sistemlərinin istismarı, Mehmanxana və restoran işinin təşkili, Moda dizaynı, Baytarlıq və heyvandarlıq işi, Kənd təsərrüfatı və inşaat texnikası (maşınlarının) istismarı kimi ixtisaslar üzrə hazırlıq keçirlər. Bu ixtisasları bitirən məzunlara subbakalavr diplomu təqdim olunur və onlar ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq imkanına malik olurlar. Texniki peşə təhsili istiqamətində isə Turizm sahəsində iaşə üzrə mütəxəssis, Dayə, Dərzi, Kombi və kondisioner ustası və digər ixtisaslar üzrə üçillik təhsil proqramları həyata keçirilir. Bu proqramları uğurla başa vuran tələbələr həm tam orta təhsil haqqında attestat, həm də peşə diplomu əldə edirlər. Bundan başqa, 11 illik təhsil bazasında təşkil olunan birillik ixtisaslarımız da mövcuddur. Aşpaz, Qənnadçı-şirniyyatçı, Əməliyyatçı mühasib, Sığorta işçisi, Dayə və digər ixtisaslar üzrə təhsil alan tələbələr qısa müddətdə peşə vərdişlərinə yiyələnərək əmək bazarına çıxış imkanı qazanırlar.

***– Tələbələrin praktik bacarıqlarının inkişafı da maraqlıdır. İstehsalat təcrübələri necə təşkil olunur?***

– Mərkəzdə təhsil prosesi nəzəri və praktik hissələrdən ibarətdir. Tələbələr nəzəri bilikləri təhsil müəssisəsində əldə edir, praktik məşğələləri isə ixtisaslarına uyğun müəssisə, təşkilat və emalatxanalarda keçirlər. Mərkəzdə müxtəlif ixtisaslar üçün emalatxanalar fəaliyyət göstərsə də, bütün istiqamətləri əhatə edən təcrübə bazasının formalaşdırılması məqsədilə müxtəlif müəssisələrlə əməkdaşlıq edilir və tələbələr istehsalat təcrübəsinə göndərilirlər. Hazırda mərkəzimizdə təhsil alan 10 qrup texniki və ilk peşə təhsili, 6 qrup isə yüksək texniki peşə təhsili üzrə istehsalat təcrübəsində iştirak edir. Tələbələrin real iş mühiti ilə tanış olması üçün bölgəmizin aparıcı müəssisələri ilə sıx əməkdaşlıq edirik. Məsələn: Mühasibat uçotu ixtisası üzrə təhsil alan tələbələr Maliyyə Nazirliyində, Elektronika və kommunikasiya sistemlərinin istismarı ixtisas qrupu STEAM Mərkəzində, Nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə) ixtisas qrupu isə Naxçıvan Avtomobil Zavodunda istehsalat təcrübəsindədir.

Mərkəzdə keçirdiyimiz zaman kəsiyində bir daha şahid olduq ki, Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi yalnız peşə öyrədən təhsil müəssisəsi deyil, eyni zamanda savadlı, yaradıcı, təşəbbüskar və müasir düşüncəli gənclərin formalaşdığı mühüm təhsil ocaqlarından biri kimi fəaliyyət göstərir. Burada həyata keçirilən layihələr, əldə olunan uğurlar, tələbələrin müxtəlif sahələrdə qazandıqları nailiyyətlər və peşə təhsilinin inkişafı istiqamətində görülən işlər mərkəzin gələcəkdə daha böyük uğurlara imza atacağından xəbər verir.

Peşə təhsili insanın öz potensialını üzə çıxarmasına, cəmiyyət üçün faydalı və peşəkar şəxs kimi formalaşmasına şərait yaradır. Hər bir peşə cəmiyyət üçün vacibdir və hər bir sənət sahibi öz əməyi ilə ölkənin inkişafına töhfə verir. Savadlı, bacarıqlı və peşəkar gənclərin yetişməsi isə Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan dövlətinin bu sahəyə göstərdiyi diqqət və həyata keçirilən islahatlar peşə təhsilinin gələcəkdə daha da inkişaf edəcəyindən xəbər verir. Gənclərin peşə təhsilinə yönləndirilməsi, onların əmək bazarına hazır və bacarıqlı şəkildə daxil olması ölkəmizin davamlı inkişafına xidmət edən mühüm amillərdəndir. Güclü peşə təhsili sistemi isə güclü gələcəyin təminatıdır.

**Səmayə RƏSULOVA**

# Naxçıvan gimnastları beynəlxalq festivalda uğurla çıxış ediblər

Bakı şəhərinin Fəvvarələr meydanında Azərbaycan, Türkiyə, Gürcüstan və Litvanı təmsil edən komandaların iştirakı ilə "Gimnastika hamı üçün" növü üzrə IV Bakı Beynəlxalq Festivalı keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirə 60 komandadan, ümumilikdə, 900-ə yaxın iştirakçı qatılıb.

Festivalda Naxçıvan Muxtar Respublikasını "Step Legends", "Ladybug", "African Echo" və "Şərur-Naxçıvan" komandaları təmsil ediblər. Məşqçilər Humay Qafarova və Xanım Əhmədovanın ("Şərur-Naxçıvan") rəhbərliyi ilə, ümumilikdə, 40 idmançı festivalda iştirak edərək öz bacarıqlarını nümayiş etdiriblər. Onlar təqdim etdikləri rəngarəng və maraqlı çıxışlarla yüksək nəticələr əldə edərək festivalın qalibləri sırasında yer alıblar.

Festivala "Step Legends" və "Şərur-Naxçıvan" komandaları birinci yerə layiq görülüblər. "African Echo" komandası ikinci olmaqla yanaşı, "Ən yaxşı kostyum" nominasiyasının qalibi olub. "Ladybug" komandasının çıxışı da ikinciliklə qiymətləndirilib. Komandanın üzvü İbrahim Nəsrin isə festivalın "Ən balaca iştirakçı" nominasiyasında fərqlənib.

Tədbir çərçivəsində müxtəlif nominasiyalar üzrə qaliblər mükafatlandırılıb, fərqlənən iştirakçılara diplom və hədiyyələr təqdim olunub.














# Kəklikotunun sorağı ilə Şahbuz dağlarında

**İlin yaz-yay ayları təbiətin ən çox canlandığı dövrdür. Məhz bu aylarda diyarımızın dağlıq rayonlarında "Min bir dərdin dərmanı" adlandırılan kəklikotunun yığımı başlayır. Ətri və müalicəvi xüsusiyyətləri ilə seçilən bu bitkinin toplanması kənd sakinlərinin əsas məşğuliyyətlərindən biridir.**



Dağların qoynunda bitən kəklikotu əsrlərdir, həm təbii şəfa mənbəyi, həm də süfrələrə bərəkət gətirən nemət kimi istifadə olunur. Soyuq qış günlərində içilən kəklikotu çayı insanın təkcə bədənini deyil, ruhunu da isidir. Onun ətri isə sanki təbiətin saf nəfəsini xatırladır.

Elə biz də bu ətrin sorağı ilə qədim yurd yerlərindən biri olan Şahbuz rayonunun Qızıl Qışlaq kəndinə yollandıq. Yolboyu yaşıla bürünmüş dağlar, sərin dağ mehinin gətirdiyi təravət və gözoxşayan mənzərələr bizi qarşılayırdı. Təbiətin qoynunda keçən hər dəqiqə insanı şəhərin səs-küyündən uzaqlaşdırıb başqa bir aləmə aparırdı.



Kəndə çatdığımız zaman dağın ətəyində kəklikotu yığan bir xanımla rastlaşdıq. Salamlaşıb söhbətə başladıq. 65 yaşlı Zibayət Göyüşova bizi səmimiyyətlə qarşıladı. Əllərində dağın ətri, simasında isə illərin zəhməti görünürdü. O, uzun illərdir ki, hər yaz bu dağlara üz tutur, təbiətin bəxş etdiyi kəklikotunu toplayır.



Zibayət xanım təbiətə bağlılığından danışaraq qeyd edir ki, illərdir, dağlara üz tutur, müxtəlif dərman və ətirli bitkilər toplayır. Onun sözlərinə görə, təbiət yalnız ruha dinclik vermir, həm də insanlara saysız-hesabsız nemətlər bəxş edir: "Uşaqlıqdan təbiətin içində böyümüşəm. Dağların, yamacların hər cığırını tanıyıram. Mövsümə uyğun olaraq müxtəlif bitkilər yığıram, onları qurudub ilboyu istifadə edirəm. Hər bitkinin özünəməxsus faydası və gözəlliyi var. Amma kəklikotu mənim üçün həmişə fərqli olub. Onun ətri uzaqdan hiss olunur, adamı özünə cəlb edir. Dəmləndə isə ətrafa elə xoş qoxu yayılır ki, insanın bütün yorğunluğunu alır. Təbii və saf olması da onu daha qiymətli edir. Kəklikotu çayı süfrəmizdən əskik olmur. Həm qonaqlara təqdim edirik, həm də ailə üzvləri ilə birlikdə içirik. Bu bitki mənə həmişə dağların təmiz havasını, təbiətin gözəlliyini xatırladır".

Söhbətimiz əsnasında dağlardan topladığı kəklikotundan çay dəmləməyi təklif edən müsahibim, bu bitkinin əsl dadını və ətrini yalnız təzə dəmləndə hiss etməyin mümkün olduğunu deyərək bizi evinə dəvət etdi.

Zibayət xanımın dəvətini qəbul edib evinə yollandıq. Samovar tüstüləyir, kəklikotu çayı dəmlənərkən söhbətimizə davam edirik.

Müsahibim bildirir ki, arıçılıqla da məşğul olur. Onun sözlərinə görə, dağlarda bitən kəklikotu arılar üçün də əlverişli bitkilərdəndir. Zibayət xanım qeyd etdi ki, bu bitki məişətdə geniş istifadə olunur və nəsildən-nəslə ötürülən ənənələrin bir hissəsinə çevrilib.

"May-iyun aylarında dağlar rəngbərəng çiçəklərlə bəzənir. Həmin vaxt kəklikotunun ətri hər tərəfə yayılır. Bu mövsüm həm təbiətin ən gözəl vaxtlarından biridir, həm də bitki yığımı üçün əlverişli dövrdür. Kənd sakinləri illərdir, bu ənənəni davam etdirirlər. Kəklikotu təkcə çay kimi istifadə olunmur. Müxtəlif yeməklərə qatılır, bəzi evlərdə mürəbbəsi də hazırlanır. Hər kəs onu öz zövqünə uyğun şəkildə istifadə edir. Bu bitki həm süfrələrimizin, həm də gündəlik həyatımızın ayrılmaz hissəsidir", – deyə o bildirdi.

Biz isə bu sözlərin doğruluğuna kəklikotu çayının ətrafa yaydığı xoş ətri hiss edərək şahidi olduq. İsti çayımızı içdikdən sonra Zibayət xanıma qonaqpərvərliyinə görə təşəkkür edib bu gözəl məkandan ayrıldıq.

Şahbuzun Qızıl Qışlaq kəndində kəklikotunun izinə düşdüyümüz bu səfər bir daha göstərdi ki, təbiətin ən sadə nemətləri belə insan həyatında böyük dəyərə malikdir. Samovarda dəmlənən kəklikotu çayının ətri, kənd həyatının səmimiyyəti və Zibayət xanımın təbiətə olan sevgisi bu görüşü daha da yaddaqalan etdi.

✍ **Zəhra VƏLİYEVA**

# Əmrah Nağıyev ikiqat ölkə çempionu olub



Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə Azərbaycan çempionatı keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yarışda milli komandanın üzvləri də daxil olmaqla paytaxt klublarını, həmçinin Gəncə, İsmayıllı, Bərdə, Xızı və Ordubadı təmsil edən, ümumilikdə, 135 atlet mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə yarışda "Ordubad" komandasının atletləri də iştirak ediblər. Komandanın üzvləri çempionatda uğurla çıxış edərək 2 qızıl və 2 gümüş medal qazanıblar.

Əmrah Nağıyev 3000 metr məsafəyə maneələrlə qaçışda və 5000 metr məsafədə bütün rəqiblərini geridə qoyaraq ikiqat çempion olub. Namiq Babayev isə 800 və 1500 metr məsafələrdə gümüş medal qazanaraq fəxri kürsünün ikinci pilləsində yer alıb.

**_Bildiriş_**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 20 may 2026-cı il tarixli, 20 nömrəli Qərarına əsasən Naxçıvan Muxtar Respublikası Turizm Departamenti ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər.

Ləğvedici: Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi.

***Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 39***
***Əlaqə telefonu: 036-545-69-70, 036-545-70-33***
***Email: ndvx@taxes.gov.az***

**_İtmişdir_**

Naxçıvan şəhəri, Əliabad qəsəbə sakini Yolçuyev Ataş Vəli oğlunun adına olan AO-0463705 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kəndi, 3-cü küçə, ev 40-da yaşayan Qənbərova Şərəbanı Quşdan qızının adına olan evin 104013009803-10301 reyestr nömrəli, 18584 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kəndində yaşamış Ələkbərova Havva Həsən qızının adına olan $298^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Ayrınc kəndində Ağalarov Zahid Cəbrayıl oğlunun adına verilmiş JN-$105^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Aşağı Qışlaq kəndində İsmayılova Yasəmən Nadir qızının adına verilmiş JN-$045^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Arpaçay kənd sakini İsmayılova Züleyxa Ağa qızının adına olan JN-$017^{A}$ nömrəli, 10205048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Çənnəb kəndində yaşamış Babayev Səbuhi Hüseyn oğlunun adına olan JN-$171^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kənd sakini Bağırov Səməd Muxtər oğluna məxsus JN-$856^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Mehrab kənd sakini Quliyev Yusif Nəcəf oğluna məxsus JN-201-A1 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Kərimova Sabirə Kamil qızına məxsus JN-$550^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 123

***Nömrəyə məsul:*** **Ramiyə Əkbərova, Səmayə Rəsulova, Zəhra Vəliyeva**
***Dizayner:*** **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*